Ədalət.- 2017.- 23 fevral.- S. 4.

# Əsrin faciəsi

**Ulu Tanrı kainatın ahəngi pozulmasın deyə, bütün yaratdıqlarını nizamlı yaradıb. Hər şeyə özünəməxsus bir şirinlik, bir gözəllik verib və sevib öz yaratdıqlarını Böyük Yaradan. Zamanın illərini, aylarını, günlərini, saatlarını, dəqiqələrini, hətta bir andan ibarət olan saniyələrini yaradıb Tanrı, həyatın vaxtını təyin etmək üçün. Bu dəqiqələr, bu saatlar hüdudsuz cahana şəfəq saçan günəşli gündüzləri, nurlu ayla, saysız-hesabsız ulduzlarla bəzənmiş bəyaz gecələri biri-birilə əvəz edib, yaşadıb kainatı tarixi bilinməyən tarixlər boyunca.**

Mən bir vaxtlar sevərdim o aylı-ulduzlu gecələri. Ona görə yox ki, qaranlığa aludə olmuşdum. Ona görə ki, bir neçə saatlığa da olsa yaşadığım özgə qapılarındakı əzablı gündüzlərdən, hələ uşaq ikən çəkə bilmədiyim ağır yüklərdən xilas olur, qabarlı əllərimin sızıltısını unutmağa çalışır, acı göz yaşları içində yatağa sığınaraq valideynli, analı günlərimi xatırlayırdım.

Lakin məni qarşıda bütün həyatım boyu xatırlayası olduğum daha dəhşətli, daha qaranlıq, daha müdhiş bir gecə gözlədiyindən xəbərsiz idim. Mən sonrakı gecədən xəbərsiz olmaq, xalqıma baş verəcək müsibətlərin qarşısını almaq üçün ömrümün bütün gecələrinin uşaqlıq dövrümdəki əzablı gecələrim kimi qalmasına razı olardım. Eşitdiyim amansız xəbərin təsirindən özümdən mənzillər sahiblərinin isti nəfəsini itirdiyindən tədricən soyu-mağa başladı, şəhər sanki məzarlığa çevrildi həmin fevral gecəsi.

Ermənilər günahsız insanları təhqiramiz sözlərlə, yağış kimi yağan güllələr altında şəhərdən çıxarırdı. Külək ac qurd kimi ulayır, gecənin bu qatı qaranlığında ayaqyalın, başıaçıq, dəstə-dəstə hara getdiyini bilməyən günahsız insanlar ömürlərinin ən faciəli məqamını yaşayırdılar. Özləri məcburiyyət qarşısında irəli getsələr də, həyacanla döyünən kövrək ürəkləri arxaya, doğma ocağa qayıtmağa can atırdı. Onlar tez-tez dönüb geriyə baxır, "qeyrətli" vətən oğullarının elə indicə havadan, yerdən, hər tərəfdən hücum çəkərək onları xilas edəcəyinə ümid bəsləyirdilər. Beləcə bu ümidlər altında ağır addımlarla şaxtadan qovrula-qovrula, sızlaya-sızlaya Xocalıdan uzaqlaşdırıldı Xocalı əhli.

İtdi ümidləri, söndü tez-tez geriyə, doğma ocağa sarı tuşlanan işıqlı, mehriban gözlərinin işartısı. Bu biçarələr nə biləydilər ki, bir dovşan uğrunda mübarizə aparan ayı ilə şir kimi, kürsü naminə hər şeydən keçməyə hazır olan, yüksək kürsülərdən vətən, torpaq deyərək ağızlarından köpük axan bir qisim nadanlar tökülən bu günahsız qanlardan xəbərsizdir. Başları, iki əlləri ilə möhkəm-möhkəm yapışaraq buraxmaq istəmədikləri kürsüyə qarışıq olduğu halda, bu faciədən necə xəbər tutaydılar?!

asılı olmadan başımı uzandığım taxta çarpayının küncünə vurmuş, çarpayıdan qalxmış, döşəməyə damlayan qanla, gözlərimdən süzülən qanlı yaşın, başımdakı sızıltının təsirindən sanki yuxudan oyanmışdım o dəhşətli gecə.

O güclü sızıltı aradan iyirmi beş il ötməsinə baxmayaraq, mənə əsirlikdə olan həsrət dolu gözlərin yaşını, qubar dolu ürəklərin göynərtisini, sızıltısını unutmağa imkan vermir. Hər gün axşam yaxınlaşanda o sızıltı artır, gecələr güclü ağrı-ya çevrilərək ürəyimə təsir edir, oyum-oyum oyur məni. Çəkilmir ürəyimin göynərtisi, qaysaqlanmır qəlbimin Xocalı adlı yarası.




**Sızlayan Xocalım, yanan Xocalım,**
**Şaxtada, sazaqda donan Xocalım.**
**Nə yaman dağ çəkdi kövrək qəlbinə?!**
**Yaralı köksünə zaman, Xocalım!**

* * *

Qarlı-çovğunlu, qasırğalı bir fevral gecəsi! Həyatın yazılmamış qanunlarına uyğun olaraq o gecə başqa gecələrdən çox fərqlənirdi. Xocalıda uzun illərdən bəri təsadüf edilməmiş güclü külək, qar, şaxta, qasırğa vardı o gecə.

Külək donmuş qarı duz dənələri kimi sovurur, öz axını istiqamətində küçələrin, evlərin tinində, daldalanacaq olan yerlərdə kiçik qar təpələri yaradırdı. Küləyin təsirindən ev-lərin yaxşı bərkidilməmiş pəncərə şüşələri dəmir relslərin üstündə hərəkət edən qatar təkərləri kimi taqqıldayırdı. Evlərin sobalarından qalxan qara tüstü şəhərin üstündə sanki qara bulud layı yaratmışdı.

Lakin şəhəri hər tərəfdən daha dəhşətli, daha məkrli başqa bir qara bulud əhatəyə almışdı. Təvazökar, son dərəcə səmimi, sadəlövh Xocalı əhli, bu görkəmindən zəhrimar tökülən, qısa müddətdən sonra onlara dəhşətli bir fəlakət gətirəcək, bəşər tarixində misli görünməmiş bir soyqırım, bir faciə yaradacaq ikinci qara buluddan xəbərsiz idi.

- "İtlə yoldaş ol, çomağı yerə qoyma!"

Onlar sanki bu nəsihətamiz el məsəlini unutmuş, bayırdakı dəhşətli şaxtanın təsirindən isti yatağa möhkəm-möhkəm sığınaraq şirin yuxuya getmişdilər.

Hər biri axşam yatağa uzanarkən kəlmeyi-şəhadət oxuyaraq Ulu Tanrıya dua eləmiş, ondan növbəti səhərin uğurla açılması, onların hər birinə sevinc, fərəh gətirməsi üçün kömək diləmişdilər. Hərənin öz qayğısı, öz iş planı var idi növbəti gün üçün. Uşaqlar məktəbə, valideynlər işə yollanacaq, kimi qonaq gedəcək, kimi neçə vaxtdan bəri görmədiyi yaxın adamını, əzizini qarşılayacaqdı. Kimi nişan üzüyünü sevgilisinin barmağına taxacaq, kimi də yolunda hər şeydən keçməyə hazır olduğu istəklisinə öz ürəyini açacaq, taleyini onunla bağlamağa qərar verəcəkdi. Neçə gənc qadın ana olacaq, həyata yenicə göz açası olan bu körpələr onlara bir dünya sevinc bəxş edəcək, analar nənə, atalar baba olacaqdı növbəti gün.

Haqqında danışdığımız həmin növbəti səhər əgər uğurla açılsaydı neçə nurlu üzlər Günəş kimi işıq saçaraq, neçə evdən gülüş, qəhqəhə sədaları gələcək, neçə-neçə insan ona həyat bəxş elədiyi üçün Ulu Tanrıya minnətdar olacaqdı.

Əfsus ki, həmin günahsız insanlara minnətdar olmağa ehtiyac olmadı və onlar bəlkə də yırtıcılarla əhatə olunmuş bu mənfur həyata gəldikləri üçün peşman oldular o gecə.

O çovğunlu fevral gecəsi çoxlu sayda insanların həyatını, taleyini alt-üst elədi. Quduz ermənilər rus yalquzaqları ilə birləşərək Xocalıya vəhşicəsinə basqın elədilər. Bu vəh-şilikdən xəbərsiz olan əliyalın insanlar ayaqyalın, başıaçıq vəziyyətdə isti ocaqlarından ayrılaraq erməni qaniçənlərinin əsirinə çevrildilər. Əmrə tabe olmayanlar vəhşicəsinə gül-lələnir, küçələrdə qan su yerinə axırdı. Gözdən yayınıb qaçmağa imkan tapanlar şəhərdən bir qədər kənarda qoyulan pusquya tuş gələrək məhv edilirdilər. Güllələr qatı qaranlığı yararaq göydən yağış kimi səpələnir, günahsız insanların fəryadı yerlə göy arasında sanki güclü bir titrəyiş yaradırdı. Ay öz nurlu üzünü gizlədərək sanki insan övladının törətdiyi vəhşilikdən xəcalət çəkirmiş kimi görünməməyə çalışırdı. Söndü çıraqlar, kül tutdu ocaqlardakı közlərin üstünü,

Axı onların üz-gözünü, yalın ayaqlarını şaxta göynətmir, sinələrinə təhqir olunan qız-gəlinlərimizin acı fəryadı dağ çəkmirdi. Gözləri önündə canlanmırdı o dəhşətli mənzərə - günahsız körpələrin, hamilə qadınların bədənlərinə soxulan süngülər...

Bütün bunları görmək, duymaq, vətəni, milləti yolunda canından belə keçməyə hazır olmaq üçün isə onların sinəsində Milli Qəhrəmanımız, Şəhid qardaşımız Əlif Hacıyevin kövrək ürəyi kimi bir ürəyin olması gərək idi. Çox əfsus ki, belə ürək qismət olmur hamıya, döyünmür hər kəsin sinəsində.

Kaş o çətin məqamlarda sinəsindən ürək əvəzinə daş asılmış həmin nadanları qeyrətli vətən oğulları əvəz edəydilər. Başımıza gəlmədi bütün bu müsibətlər, günahsız adamların qanı axmaz, insanlarımız əsir düşməz, Qarabağımızı itirməzdik.

Lakin bütün bunlara baxmayaraq ruhdan düşmür, ümidlərimizi itirmir, Ali Baş Komandanın ətrafında yumruq kimi birləşərək günbəgün çiçəklənən ölkəmizin bütövləşməsi uğrunda mübarizəmizi davam etdirir, sabaha inamla baxırıq.

Adı canımızla bağlı olan Azərbaycan adlı azad, müqəddəs bir ölkədə yaşamaq hər birimiz üçün fəxarətdir. Onun yaşıl meşələrinə, başı qarlı sıldırım dağlarına, saf bulaqlarına, şırıl-şırıl axan çaylarına nəzər salanda qəlbim fərəhlə döyünür. Düşünürəm ki, bütün bu gördüklərimin əsl sahibi mənəm və bu gözəlliklər tarixlər boyu mənə məxsus olacaq. Gecələr sayrışan ulduzlara diqqət yetirəndə azad ölkəmin bəxtəvər balalarının par-par parlayan işıqlı gözləri canlanır gözlərim önündə. Qatı qaranlığı yaran Ay işığından sanki nur çilənir elimizin, obamızın üstünə. Fikirləşirəm ki, sübh tezdən bu nurlu Ayı əzəmətli Günəş əvəz edəcək, işıqlandıracaq, qızındıracaq ana torpağımı. Bu istilik, bu hərarət oda, alova çevriləcək məkrli düşmənin başı üstündə. Xilas olacaq Qarabağım, bütövləşməyə başlayacaq Azərbaycanım!

Tədricən qaysaqlanacaq yurdumuzun yaraları.

Yenə toy-büsat qurulacaq Xocalıda, Xocavənddə. Yolumuzu gözləyir Xocavənddə arxın kənarındakı qocaman tut ağacı. Yolumuzu gözləyir həmin tut ağacının şirəsini çəkən bal arıları. Çəmənlər, çiçəklər yolumuzu gözləyir. Saf bulaqları-mız, düşmən tapdağından təngə gəlmiş enişli-yoxuşlu kənd yollarımız, bu yollardan evlərimizə ayrılan dar küçələrimiz, cığırlarımız yolumuzu gözləyir. Tezliklə açacağıq bağlı qalmış qapılarımızı. Yenə tüstü qalxacaq bacalarımızdan, alovlanacaq ocaqlarımız. Doğma Şuşamızda Qarabağ bülbül-lərinin "Qarabağ şikəstəsi" əks-səda verəcək sıldırım dağla-rımızda. O sıldırım dağlarımız dağ çəkəcək erməni adlı həşəratların məkrli sinələrinə.

O günü tezliklə görəcəyik inşallah!

**VAQİF ƏZİZ**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**"Qızıl Qələm" mükafatı laureatı**